TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

ƏTRAF MÜHİT, TƏBİİ EHTİYATLAR VƏ SAĞLAMLIĞIN QORUNMASI KOMİSSİYASI

DOQQUZUNCU İCLAS

27 may 2024-cü il

ONLAYN

HESABAT MƏRUZƏSİ

"TÜRKPA ÜZV DÖVLƏTLƏRİNDƏ TİBBİ TULLANTILARIN İDARƏ EDİLMƏSİ"

GİRİŞ

Türkiyə Respublikasının Ankara şəhərində keçirilən TÜRKPA-nın 12-ci Plenar iclasında qəbul edilmiş Katibliyin 2024-cü il üçün Fəaliyyət planına və TÜRKPA-nın 2023-2028-ci illər üçün Strateji Yol Xəritəsinə uyğun olaraq, "TÜRKPA üzv dövlətlərində tibbi tullantıların idarə edilməsi" adlı mövzunun Komissiyanın doqquzuncu iclasının gündəliyinin əsas mövzusu olaraq müzakirə edilməsi qərara alınmışdır.

Tibbi tullantıların idarə edilməsi ciddi qlobal problemdir. İqtisadi cəhətdən yüksək inkişaf etmiş, səhiyyəyə yönəldilən yüksək dövlət investisiyası və ömür uzunluğunun göstəricisi yüksək olan ölkələrdə səhiyyə müəssisələri tərəfindən daha çox tibbi tullantı kənarlaşdırılır.

Bunun əksinə olaraq, yoluxucu xəstəliklərin yayılmasından əziyyət çəkən iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə bu cür tullantılar ya düzgün yığılmır, ya da düzgün qeydiyyata alınmaya bilir. Bu məsələyə TÜRKPA üzv dövlətləri də xüsusi önəm verir.

Müasir dünyada tibb müəssisələrinin sayının və tibbi xidmətin həcminin artması ilə tibbi tullantıların idarə edilməsi və zərərsizləşdirilməsi məsələsi daha aktual və vacib xarakter alıb. Bununla əlaqədar olaraq, tibbi tullantıların idarə edilməsi sahəsində normativ hüquqi baza xüsusi əhəmiyyət kəsb edir. Bu məsələnin nəzərdən keçirilməsi və müvafiq həll yollarının tapılması TÜRKPA üzv dövlətlərində həll edilməmiş bütün vacib məsələlərə öz töhfəsini verəcəkdir.

Sağlam ətraf mühit hüququ ən açıq şəkildə tibbi tullantıların yaxşı idarə olunmaması ilə pozulur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilk dəfə 1979-cu ildə tibbi tullantıları təhlükəli tullantılar kateqoriyası kimi tanıdı və onların idarə edilməsi üçün xüsusi xidmətlərin yaradılmasına çağırdı. Yaxın zamanda, 1992-ci ildə Bazel Konvensiyası tibbi tullantıların idarə olunmasında mühüm mərhələ keçərək, 45 müxtəlif növ tullantını müəyyən etdi, onların arasında tibbi tullantılar birinci yeri tutdu. Bu tədbirlər ətraf mühitə və insan sağlamlığına birbaşa potensial təhlükənin artdığını nəzərə alaraq ətraf mühitə və insan sağlamlığına mənfi təsirlərin qarşısının alınması üçün tibbi tullantıların düzgün emalı və idarə olunmasının vacibliyini vurğulayaraq ətraf mühitin və əhalinin sağlamlığının qorunmasında mühüm addımlar olmuşdur. Tərkibində infeksiyalar, kimyəvi, radioaktiv və digər materiallar olan tibbi tullantıların həcminin ildən-ilə artması ilə əlaqədar əhalinin sağlamlığına, ekoloji və sanitar vəziyyətinə təhlükə yaradan, bu sahədə zəruri tədbirlərin həyata keçirilməsi həll edilməsi vacib olan mühüm məsələlərdən biridir. Bu gün səhiyyə sisteminin qarşısında duran əsas vəzifə yüksək keyfiyyətli və sərfəli tibbi xidmətlərin göstərilməsidir. Qeyd edilməlidir ki, müasir tibbi avadanlıqların mövcudluğu, qabaqcıl tibbi texnologiyaların tətbiqi ilə birlikdə xidmət keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, tibbi fəaliyyət nəticəsində yaranan biotibbi tullantıların təxminən 15% - i həm insan sağlamlığı, həm də ətraf mühit üçün təhlükə yaradır. Bu cür tullantılara potensial olaraq əhalinin kütləvi zəhərlənməsinə və ətraf mühitin uzunmüddətli çirklənməsinə səbəb ola biləcək yoluxucu, kimyəvi və ya radioaktiv materiallar daxildir.

1995-ci ilin may ayında BMT Ətraf Mühit Proqramının İdarə Heyəti kimyəvi maddələrin siyahısını qiymətləndirmək üçün davamlı üzvi çirkləndiricilər haqqında altı il sonra Stokholm Konvensiyasının qəbul edilməsi ilə nəticələnən beynəlxalq və təşkilatlararası bir prosesə başladı. 2004-cü ildə qüvvəyə minmiş və o vaxtdan bəri dəfələrlə yenidən işlənmiş bu konvensiya sadalanan kimyəvi maddələrin istehsalını və paylanmasını ləğv etmək və ya məhdudlaşdırmaq məqsədi daşıyır. C əlavəsində tibbi tullantıların yandırılması davamlı çirkləndiricilərin mənbələrindən biri elan edilir və V hissədə ən yaxşı ekoloji təcrübə təklifləri

arasında belə bir çağırış vardır: Yeni tullantıların utilizasiyası obyektlərinin tikintisi ilə bağlı təkliflərə baxılarkən, resursların bərpası, təkrar istifadəsi, təkrar emalı, tullantıların ayrılması və daha az tullantı yaradan məhsulların təşviqi daxil olmaqla, məişət və tibbi tullantıların əmələ gəlməsinin minimuma endirilməsi ilə bağlı fəaliyyətlər kimi alternativlər nəzərə alınmalıdır. Bu yanaşmaya əsasən, ictimai sağlamlıq problemləri diqqətlə nəzərdən keçirilməlidir (UNEP, 2017, s.63)

Tibbi tullantıların düzgün idarə edilməməsi əhalini yoluxma riski ilə üz-üzə qoyur. Birdəfəlik istifadə olunan şprislər, damcılar və sarğılar üçün dezinfeksiya rejiminin pozulması səbəbindən tez-tez dezinfeksiya edilməmiş tullantı materialları tibb müəssisələrinin zibil qablarına atılır ki, bu da sonradan müxtəlif infeksiyaların baş verməsi və yayılması təhlükəsi yaradır.

Hesabatda TÜRKPA üzv dövlətləri arasında Tibbi tullantıların idarə edilməsinin təkmilləşdirilməsi sahəsində üzv dövlətlərin problemli sahələrinə və gələcək əməkdaşlığın prioritetlərinə diqqət yetirilir. Bu istiqamətdə işlər davamlı aparılmalıdır, çünki elm inkişaf edir, yeni texnologiyalar yaranır və vəziyyət dəyişir. Qərarverici orqanlar bu problemin vacibliyini görməli və anlamalıdırlar.

AZƏRBAYCAN

Azərbaycanda tibbi tullantılar “Tullantılar haqqında” Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 dekabr tarixli 213 nömrəli qərarı ilə təsdiq edilmiş “Tibbi tullantıların idarə olunmasına dair Tələblər”ə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 saylı Qərarı ilə təsdiq edilmiş “Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları”na əsasən idarə olunur.

Tibbi tullantılar qanunvericiliyə əsasən təhlükəlik dərəcəsinə görə 4 sinfə - A, B, C və D siniflərinə bölünür ki, bunlardan B (potensial yoluxucu xəstələrlə təmasda olmuş tullantılar) və C (xüsusi təhlükəli yoluxucu xəstələrin təmasda olduğu materiallar) sinifləri daha təhlükəli tullantılardır.

Koronovirus (COVİD-19) infeksiyasından əvvəlki dövrdə aparılan monitorinqlərə görə istər dövlət, istərsə də özəl tibb müəssisələrində tibbi tullantıların idarə olunması ilə bağlı tələblərin yerinə yetirilməsində çatışmazlıqlar mövcud idi. Belə ki, Tələblərə uyğun olaraq əksər müəssisələrdə təhlükəli tibbi tullantılar üçün xüsusi rəngli konteynerlərlər qoyulmur, bu sahəyə cavabdeh

məsul şəxs təyin edilmirdi. Regionlarda aparılmış monitorinqlər göstərmişdir ki, tibb müəssislərində formalaşan təhlükəli tibbi tullantılar ümumi tullantılarla birlikdə məişət tullantıları poliqonlarına daşınır. Bir sıra hallarda tibb müəssisələrində tibbi tullantıların çeşidli toplanması üçün xüsusi konteynerlər nəzərdə tutulmamış və tullantıların uçotu aparılmırdı. Ekologiya və Təbii Sərvətlər və Səhiyyə nazirliklərinin birgə fəaliyyəti nəticəsində bu çatışmazlıqların aradan qaldırılması istqamətində tədbirlərə başlanılmışdır.

Qeyd olunanlar nəzərə alınaraq, tibbi tullantıların idarə olunması mövzusunda maarifləndirilmə tədbirlərinin həyata keçirilməsi məqsədilə Bakı, Sumqayıt, Qazax, Mingəçevir, Quba, Şirvan və digər rayon mərkəzlərində özəl və dövlət tibb müəssisəsinin nümayəndələrinin, yerli statistika idarələrinin, səhiyyə şöbələrinin, yerli icra hakimiyyətlərinin aidiyyəti strukturlarının məsul şəxslərinin və bələdiyyələrin iştirakı ilə seminarlar və maarifləndirici monitorinqlər keçirilmişdir.

Mövcud sosial-iqtisadi inkişaf şəraitində tibb müəssisələrinin sayının artması, yeni növ tibb xidmətlərinin, metod və vasitələrin tətbiqinin genişlənməsi tibbi tullantıların həcminin dinamik artımına səbəb olmuş və beləliklə, Azərbaycanda tibbi tullantıların idarə olunmasının təkmilləşdirilməsi səhiyyənin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Ekologiya və Təbii Sərvətlər və Səhiyyə nazirliklərinin birgə əmri ilə “Tibbi tullantıların idarə edilməsi sahəsində mövcud problemlərin effektiv həlli üçün koordinasiyalı fəaliyyətin təmin edilməsi məqsədilə” işçi qrup yaradılmışdır.

İşçi qrup tərəfindən ölkədə formalaşan tibbi tullantıların idarə edilməsi sahəsində problemlərin ətraflı öyrənilməsi və onların həlli üçün zəruri tədbirlərin həyata keçiriməsi istiqamətindəki fəaliyyətinin genişləndirilməsi, səmərəliliyinin və keyfiyyətinin artırılması məqsədilə işçi qrup qarşısında tibbi tullantıların idarə olunmasına nəzarət mexanizminin hazırlanması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, tibb işçilərinin bilik və bacarıqlarının artırılması, zəruri infrastrukturun gücləndirilməsi, uçot və hesabatlılığın təşkil edilməsi, ictimai maarifləndirmənin artırılması və digər sahələrdə hədəflərin qoyulması və bu məqsədlə birgə tədbirlər planının hazırlanaraq həyata keçirilməsi nəzərdə tutulur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi və TƏBİB-lə birlikdə Bakı şəhərində və regionlardakı tibb müəssisələrində tibbi tullantıların idarə olunması sahəsində mövcud vəziyyətin öyrənilməsi ilə bağlı birgə Monitorinq Planları təsdiq edilmişdir. Ölkədə tibbi tullantıların idarə olunması (tullantıların toplanılması, müvəqqəti saxlanılması və daşınması) sistemində tibb

müəssisələrində mövcud vəziyyətin öyrənilməsi ilə bağlı UNICEF-in təşəbbüsü ilə beynəlxalq ekspertlər tərəfindən 2022-ci ilin oktyabr-dekabr aylarında 24 və Monitorinq Planları əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi, TƏBİB-nin aidiyyəti əməkdaşları tərəfindən isə 2023-cü ilin avqust-sentyabr aylarında 37, 2024-cü ilin yanvar ayında 60 tibb müəssisəsində monitorinqlər keçirilərək qiymətləndirmə aparılmışdır.

Aparılmış qiymətləndirmə nəticələrinə əsasən, Bakı şəhəri və regionlarda yerləşən tibb müəssisələrinin bir çoxunda tibbi tullantıların düzgün çeşidlənməsində, tibbi tullantıların yığıldığı otaqların təşkilində, daşınmasında, tibbi heyətin tibbi tullantıların idarə olunması sahəsində məlumatlılıq səviyyəsində, tibbi tullantıların qeydiyyat və hesabatının aparılmasında bir sıra nöqsan və çatışmazlıqlar müəyyən edilmişdir. Qeyd olunan problemlərin aradan qaldırılması məqsədilə İşçi qrup tərəfindən, o cümlədən UNICEF-in dəstəyi ilə bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, tibbi tullantıların zərərsizləşdirilməsində istifadə olunan müasir texnologiyalara dair məlumatın əldə edilməsi məqsədilə İşçi qrup üzvlərinin Özbəkistana səfəri baş tutmuş, səfər çərçivəsində tibbi tullantıların təhlükəsiz idarə olunması sahəsində həyata keçirilmiş tədbirlər, dövlət siyasəti ilə bağlı məlumat əldə edilmişdir. Beynəlxalq təcrübədə istifadə olunan tibbi tullantıların müasir zərərsizləşdirmə qurğuları barədə məlumat əldə etmək üçün UNICEF-in təşkilatçılığı ilə bir neçə onlayn görüş təşkil edilmişdir.

Bununla yanaşı, tibbi tullantıların idarə edilməsində mövcud normativ-hüquqi bazanın yenidən nəzərdən keçirilərək təkmilləşdirilməsi üçün İşçi qrupun aidiyyəti üzvlərindən ibarət alt-işçi qrup yaradılmışdır.

Eyni zamanda, “Tibbi tullantıların idarə olunmasına dair Tələblər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2007-ci il tarixli 213 nömrəli Qərarı Səhiyyə Nazirliyi tərəfindən yenidən işlənilmiş və müasir tələblərə uyğun hazırlanmış yeni qərar layihəsi aidiyyəti qurumlarla razılıq mərhələsindədir.

Tullantıların ilkin əmələ gəldiyi mənbədə onların effektiv şəkildə çeşidlənməsi məqsədilə mövcud qanunvericiliyə uyğun olaraq tibbi tullantıların idarə edilməsi ilə bağlı məlumatverici posterlər hazırlanmış və tibb müəssisələrində yerləşdirilməsinə başlanılmışdır. Həmçinin, bu istiqamətdə tibb müəssisələrində tibb personalının tibbi tullantıların idarə edilməsi üzrə bilik və bacarıqlarının artırılması üçün təlim proqramının hazırlanmış və qısa müddət ərzində təlimlərin keçirilməsi planlanlaşdırılır. Bununla yanaşı, növbəti

monitorinqlər zamanı tibb işçilərinə metodiki köməkliyin göstərilməsi nəzərdə tutulmuşdur.

Tibbi tullantıların idarə edilməsinə məsul olan qurumlar və səhiyyə müəssisələri səviyyəsində tullantıların izlənilməsi, tullantıların miqdarının və tərkibinin dəqiq monitorinqinin aparılması və elektron hesabatlılığın təmin edilməsi üçün Səhiyyə Nazirliyi tərəfindən hazırlanmış elektron məlumat bazası bir neçə tibb müəssisəsində pilot layihə olaraq sınaqdan keçirilir. .

Azərbaycan Respublikası 2001-ci ildə BMT-nin Təhlükəli Tullantıların Transsərhəd daşınmasına və köçürülməsinə nəzarət haqqında Bazel Konvensiyasına qoşulmuş və səlahiyyətli orqanı olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bazel Konvensiyası ilə təyin edilmişdir. Konvensiya üzrə öhdəliklərin yerinə yetirilməsi məqsədilə "Təhlükəli tullantıların daşınması haqqında" Əsasnamə və "Azərbaycan Respublikasında Təhlükəli Tullantıların İdarə Edilməsi üzrə Dövlət Strategiyası" təsdiq edilib.

Davamlı üzvi çirkləndiricilərə dair Stokholm Konvensiyası Azərbaycan Respublikası tərəfindən 2003-cü ildə ratifikasiya edilmişdir. Konvensiyanın səlahiyyətli orqanı kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi təyin edilmişdir. Nazirliyə Konvensiya ilə bağlı geniş məlumat daxil olmuş, aidiyyəti təşkilatların ekspertlərindən ibarət işçi qrupu yaradılaraq müvafiq təklif planı hazırlanmışdır.

Azərbaycan Respublikası 1996-cı ildə Ozon qatını məhv edən maddələr üzrə Monreal Protokolunu və bu Protokola müvafiq düzəlişləri ratifikasiya etmişdir.

QAZAXISTAN

Qazaxıstanda tibbi tullantıların idarə olunmasını tənzimləyən sabit qanunvericilik bazası mövcuddur. Bu illər ərzində ölkə bu çərçivəni təkmilləşdirib. Tibbi tullantılar üçün sanitariya və hesabat qaydaları da tibbi tullantıların təhlükəsiz və səmərəli idarə olunmasını təmin etmək məqsədilə mühüm addımlar olduğunu sübut etmişdir. Bununla belə, əhəmiyyətli irəliləyişlərə baxmayaraq, bəzi aspektlər əlavə təkmilləşdirmə tələb edir. Beynəlxalq standartlara və qabaqcıl təcrübələrə uyğunluğu təmin etmək məqsədilə qanunvericilik bazasının monitorinqinin və yenilənməsinin davam etdirilməsi vacibdir. Qaydalara ciddi riayət olunmasının təmin ediməsi məqsədilə tibbi tullantıların idarə edilməsi ilə məşğul olan işçilərə daha çox məlumat və təlimlərin verilməsi də vacibdir.

Bununla yanaşı, ətraf mühit üçün potensial riskləri minimuma endirmək və bütün vətəndaşların təhlükəsizliyini təmin etmək üçün tibbi tullantıların təmizlənməsi və utilizasiyası üzrə müasir texnologiya və texnikanın daha geniş tətbiqinə ehtiyac var.

Bazel Konvensiyasının müddəalarına əsasən, Qazaxıstan Respublikasının Ali Şurası 8 iyul 1994-cü il tarixli qərar qəbul etmişdir. Qazaxıstan Respublikasının 18 sentyabr 2009-cu il tarixli "Əhalinin sanitar-epidemioloji rifahı haqqında" Məcəlləsinin tətbiqi ilə əlaqədar ləğv edilmiş,“Əhalinin sağlamlığı və səhiyyə sistemi haqqında” Qazaxıstan Respublikasının 7 iyul 2020-ci il tarixli Məcəlləsi ilə də qüvvədən düşmüşdür.

Tibbi tullantıların idarə edilməsi sahəsində hüquqi tənzimləmə hazırda Qazaxıstan Respublikasının "Əhalinin sağlamlığı və səhiyyə sistemi haqqında" Məcəlləsi ilə həyata keçirilir.

Tibbi tullantıların idarə edilməsi Qazaxıstan əhalisinin epidemioloji və ekoloji təhlükəsizliyinin mühüm tərkib hissəsi kimi qəbul edilir. Müxtəlif yoluxucu xəstəliklərin, zəhərli və radioaktiv maddələrin yayılması əhali və ətraf mühit üçün ciddi təhlükə mənbəyi olduğu nəzərə alınaraq tibbi tullantıların yığılması, daşınması və utilizasiyası xüsusi diqqət tələb edir.

Qeyd etmək vacibdir ki, tibb müəssisələrinin "istehsal etdiyi" tullantıların miqdarı sürətlə artmağa meyllidir və nəticədə istifadə olunan vasitələrin çeşidi, həmçinin tərkibinin dəyişkənliyi artır. Hər bir tibb müəssisəsində tibbi tullantıların risk sinfinə uyğun olaraq tullantıların toplanması, müvəqqəti saxlanması, emalı və daşınması sistemi yaradılmalıdır.

Qazaxıstan Respublikasının "Davamlı üzvi çirkləndiricilər haqqında Stokholm Konvensiyasının ratifikasiyası haqqında" Qanununa əlavə olaraq, tullantıların yandırılması zavodları dibenzo-p-dioksinlər və dibenzofuranlar, heksaxlorobenzol və poliklorlu difenillər daxil olmaqla davamlı üzvi çirkləndiricilərin təsadüfən əmələ gəlməsi və sərbəst buraxılması mənbələri kimi təsnif edilir.

Qazaxıstan Respublikası Səhiyyə Nazirliyinin Sanitariya və Epidemioloji Nəzarət Komitəsinin ərazi idarələrinin məlumatına görə, 2022-ci ildə 2021-ci illə müqayisədə tibbi tullantıların miqdarı 8,6 dəfə azalıb. 2021-ci illə müqayisədə Respublikada tibb müəssisələrinin sayı 1426 obyektə qədər artıb. Tibbi əməliyyatların sayının artması və tibb müəssisələrinin 1426 obyektə qədər

artması ilə paralel olaraq, əmələ gələn tibbi tullantıların miqdarında 8,6 dəfə azalma müşahidə olunub. Bu, tibb müəssisələrinin və Komitənin şöbələrinin təqdim etdiyi hesabatların qeyri-dəqiqliyini təsdiq edir.

Ölkədə bu günə kimi alınan tibbi alətlərin və əmələ gələn tibbi tullantıların həcmini təhlil etmək üçün məlumat bazası mövcud deyil. Alınan tibbi alətlərin və əmələ gələn tibbi tullantıların həcminə nəzarət etmək üçün müasir informasiya sistemlərinin və elektron məlumat bazalarının olmaması prosesin səmərəli idarə olunmasına əsas maneədir. Əslində, belə analitik məlumat bazası tibbi tullantıların satın alınması və utilizasiyasını optimallaşdırmaq, səhiyyə müəssisələrinin ehtiyaclarını daha yaxşı başa düşmək və proqnozlaşdırmaq üçün çox vacibdir.

Aydındır ki, lazımi şəkildə utilizasiya edilmədən bioloji və tibbi tullantılar ekoloji, zəhərli və epidemik təhlükələr daşıyır. Tibbi tullantıların təkrar emalının müxtəlif yolları mövcuddur: termal, kimyəvi, termokimyəvi. Qazaxıstanda əsasən ətraf mühiti çirkləndirən və əhalini təhlükəli infeksiyalara yoluxma riski ilə üz-üzə qoyan yanma üsulundan istifadə olunur.

Respublika ərazisində ümumilikdə 122 tibbi tullantıların utilizasiyası üzrə təşkilat fəaliyyət göstərir, onlardan 108-nin öz bazası vardır (88,5%), 14 (11,5%) obyekt isə icarəyə götürülüb.

Bundan başqa, tibbi tullantıların utilizasiyası sahəsində Qazaxıstan alimləri tərəfindən unikal üsul işlənib hazırlanmışıdır. Belə ki, Əl-Farabi adına Qazax Milli Universitetinin alimləri biotibbi tullantıların (tibbi maskalar, əlcəklər, ayaqqabı örtükləri və s.) idarə olunmasının dünyada analoqu olmayan innovativ üsulunu işləyib hazırlayıblar. Yerli tədqiqatçılar tərəfindən hazırlanmış plazma tullantılarının emalı texnologiyası və plazma kimyəvi reaktoru onunla unikaldır ki, onlar biotibbi tullantıların tam istiliklə zərərsizləşdirilməsinə imkan verir, emalın səmərəliliyini artırır və enerji sərfiyyatını azaldır. Ənənəvi plazma təkrar emal üsulu ilə müqayisədə biotibbi tullantılar çeşidlənmədən təkrar emal edilə bilər.

Tullantıların utilizasiyası obyektlərinə, o cümlədən tibbi obyektlərə olan tələblər “İstehsal və istehlak tullantılarının yığılması, istifadəsi, tətbiqi, zərərsizləşdirilməsi, daşınması, saxlanması və utilizasiyasına dair sanitariya-epidemioloji tələblər” sanitariya qaydaları ilə müəyyən edilir. (Səhiyyə naziri vəzifəsini icra edənin 25 dekabr 2020-ci il tarixli əmri ilə təsdiq edilmişdir)

Bundan başqa, səhiyyə nazirinin 11 avqust 2020-ci il tarixli əmri ilə təsdiq edilmiş “Səhiyyə müəssisələrinə dair sanitar-epidemioloji tələblər” sanitar qaydaları tibbi tullantıların yığılması və saxlanması qaydalarını nizamlayır və tibbi tullantıların sinfindən asılı olaraq yığılması və daşınması üçün istifadə olunan qabların növlərini, emal mərhələlərini müəyyən edir.

Səhiyyə Nazirliyinin məlumatına görə, utilizasiyaya məruz qalacaq tibbi və dərman vasitələrinin istifadəolunduğu 16.943 tibb müəssisəsi, o cümlədən kosmetologiya mərkəzləri nəzarət altındadır.

Qazaxıstan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən tibbi tullantıların toplanması, daşınması, saxlanması, zərərsizləşdirilməsi, basdırılması və istifadəsi ilə məşğul olan fiziki və hüquqi şəxslər üçün ixtisas tələbləri işlənib hazırlanmışdır. Bu məsələ hökumət nəzarətindədir.

QIRĞIZISTAN

Tibbi tullantıların dezinfeksiya və zərərsizləşdirilməsi problemi bütün dünya ölkələri üçün son dərəcə ciddi bir məsələdir və burada Qırğızıstan da istisna deyil. 20 ilə yaxın Qırğızıstanda bu sahədə aparılan fəaliyyətlər nəticəsində bir çox məsələlər öz həllini tapıb. Tullantıların ayrılması prosesi qurulub, hər bir sinif üçün protokollar hazırlanıb, artıq zəhərli xlorla dezinfeksiya praktikasından istifadə edilmir, bir çox xəstəxanalar plastikin dezinfeksiya edilməsi üçün ətraf mühitin zəhərlənmədən qorumaq məqsədilə müasir üsullardan istifadə etməklə poliqona deyil, təkrar emala göndərir.

Lakin buna baxmayaraq indiyədək kimyəvi tullantıların utilizasiyası üçün aydın, yaxşı qurulmuş sistem yoxdur və civə tərkibli materialla qarşılıqlı təsir nəticəsində yaranan ciddi risklərin qarşısı alınmayıb.

Tibbi tullantıların yaxşı idarə edilməsi sisteminin tətbiqi prosesi mürəkkəbdir. Bu, təkcə tullantıların kateqoriyalarının və artıq Qırğızıstanda tətbiq edilmiş mövcud təcrübələrin qiymətləndirilməsini deyil, tullantıların idarə edilməsi variantlarının seçilməsi, tullantıların idarə edilməsi planının hazırlanması, institusional siyasət və təlimatların qəbulu, tullantıların idarə edilməsi üzrə təşkilatın yaradılması, insan və maliyyə resurslarının ayrılması, planların müəyyən edilmiş müddətlərə uyğun həyata keçirilməsi, eləcə də sistemin dövri təlimi, monitorinqi, qiymətləndirilməsi və davamlı təkmilləşdirilməsi proqramının həyata keçirilməsini nəzər tutur.

Qırğız Respublikası Minamata Konvensiyası istisna olmaqla, bütün mühüm konvensiyaları imzalamışdır. 1996-cı ildə Qırğız Respublikası təhlükəli tullantıların transsərhəd daşınmasına və onların utilizasiyasına nəzarət haqqında Bazel Konvensiyasını ratifikasiya etmişdir. 11 avqust 1999-cu ildə Rotterdam Konvensiyası, 31 may 2000-ci ildə isə Monreal protokolu ilə Vyana Konvensiyası imzalanmışdır.

Ekoloji təhlükəsizlik məsələlərinin əhalinin sağlamlığı üçün əhəmiyyətini dərk edərək Qırğız Respublikası 2001-ci ildə “İstehsal və istehlak tullantıları haqqında” qanun qəbul etmişdir. Bu qanunun 8-ci maddəsinə əsasən, ətraf mühitin çirklənməsi mənbəyi ola bildikdə və ya müəssisə, idarə, təşkilat və yaşayış məntəqələrinin bilavasitə yaxınlığında yanmağa məruz qaldıqda tullantıların icazəsiz yerləşdirilməsi qadağandır.

Qırğızıstan 2005-ci il iyulun 17-də Davamlı üzvi çirkləndiricilər üzrə Stokholm Konvensiyasını ratifikasiya etmiş, 3 iyul 2006-cı ildə isə bu konvensiya üzrə Milli İcra Planını təsdiq etmişdir.

Tibbi tullantıların idarə edilməsi məsələləri Qırğız Respublikasının “Qırğızıstan Respublikasında vətəndaşların sağlamlığının qorunması haqqında” qanununda (2005) öz əksini tapmışdır. Bu qanuna əsasən, yerli dövlət idarəetmə orqanlarının və yerli özünüidarəetmə orqanlarının sağlamlığın qorunması sahəsində səlahiyyət dairəsinə bioloji materialların və tibbi tullantıların məhv edilməsinin təmin edilməsi daxildir. 39-cu maddədə deyilir ki, bioloji materialın və tibbi tullantıların istifadəsi və saxlanması Qırğız Respublikasının səhiyyə sahəsində səlahiyyətli orqanı - Səhiyyə və Sosial İnkişaf Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilməlidir.

Qırğız Respublikası Hökumətinin 03.07.2013-cü il tarixli, 396 nömrəli “Qırğız Respublikası Hökumətinin Sanitariya-Epidemioloji Xidməti tərəfindən əhalinin sanitar-epidemioloji rifahının təmin edilməsi üçün sanitariya-epidemioloji nəzarət haqqında” Qərarına əlavə və dəyişikliklər edilməsi haqqında Qərarına əsasən Qırğız Respublikasına idxal edilən potensial zəhərli kimyəvi maddələrin qeydiyyatı yenilənmişdir.

Səhiyyə təşkilatlarında potensial yoluxucu tibbi tullantıların idarə olunması Qırğız Respublikası Səhiyyə Nazirliyinin 59 nömrəli, 18.02.2013-cü il tarixli əmri ilə şöbə nəzarəti səviyyəsində tənzimlənir. Digər tibbi tullantıların idarə olunması qaydaları isə bu əmrlə tənzimlənmir.

Əczaçılıq tullantılarının idarə edilməsi Qırğız Respublikası Hökumətinin 407 nömrəli, 09.1997-ci il tarixli "satışa yararsız hesab edilən məhsulların (malların)

məhv edilməsi (emalı) qaydası haqqında əsasnamə" nin təsdiq edilməsi barədə və 137 nömrəli, 06.04.2011-ci il tarixli "tibbi istifadə üçün dərmanların təhlükəsizliyi haqqında" Texniki qaydanın təsdiq edilməsi haqqında qərarı ilə tənzimlənir.

Radioaktiv tullantıların idarə edilməsi Qırğız Respublikasının növbəti Qanunları ilə tənzimlənir: “Əhalinin radiasiya təhlükəsizliyi haqqında” (1999; 2014), “Radiasiya təhlükəsizliyi haqqında” Texniki Qaydalar (2011), “Qırğız Respublikasında fəaliyyətin lisenziyalaşdırılması və icazə verilməsi haqqında” (2013), həmçinin “Radiofarmasevtik preparatlarla radionuklid diaqnostikası zamanı radiasiya təhlükəsizliyinin təmin edilməsi qaydaları məcəlləsi”. (Qırğız Respublikası Səhiyyə Nazirliyinin 30.04.2015-ci il tarixli 227 nömrəli və Qırğızıstan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Standartlaşdırma və Metrologiya Mərkəzinin 22.05.2015-ci il tarixli, 15 nömrəli əmrləri ilə təsdiq edilmişdir)

Kimyəvi maddələrin ətraf mühitə və əhalinin sağlamlığına zərərli təsirlərinin minimuma endirilməsinin təmin edilməsi məqsədilə “2015-2017-ci illər üçün Qırğız Respublikasında kimyəvi maddələrin düzgün idarə edilməsinə dair Qırğız Respublikası Hökumətinin Proqramı” 2015-ci ildə Hökumətin 91 nömrəli qərarı ilə qəbul edilmişdir.

Qırğızıstan Respublikası Hökumətinin əhalinin sağlamlığının qorunması və səhiyyə sisteminin inkişafına dair 2019-2030-cu illər üçün “Sağlam insan – firavan ölkə” Proqramında aşağıdakılar nəzərdə tutulmuşdur: tibbi prosedurların təhlükəsizliyinin təmin edilməsində, xəstəxanadaxili infeksiyalara nəzarətdə və səhiyyə təşkilatlarında tibbi tullantıların utilizasiyası texnologiyalarından istifadədə müasir, effektiv standartların və meyarların işlənib hazırlanması və tətbiqi.

“Qırğız Respublikasının səhiyyə təşkilatlarında tibbi tullantıların idarə edilməsi və tərkibində civə olan məhsulların emalı məsələləri haqqında” 30.12.19-cu il tarixli 719 nömrəli Hökumət qərarı ilə aşağıdakılar təsdiq edilmişdir: “Tibbi tullantılarla işləmə Qaydası” və “Tərkibində civə olan məhsulların işlənməsi və işlənməsi qaydası”. Bu sənədin mühüm xüsusiyyəti mülkiyyət növündən asılı olmayaraq bütün səhiyyə təşkilatlarının onu həyata keçirmək öhdəliyidir. Sənəddə, həmçinin Stokholm və Bazel Konvensiyalarına uyğun olaraq, tibbi tullantıların yandırılması texnologiyasının ekoloji təhlükələri və ətraf mühitə və insan sağlamlığına zərərli təsirlərinə görə istifadəsinə qadağa qoyulur.

Qırğız Respublikası Səhiyyə Nazirliyinin 17.07.20-ci il tarixli, 526 nömrəli “COVID-19 pandemiyası dövründə Respublikanın səhiyyə təşkilatları üçün

müvəqqəti standart iş prosedurlarının 2-ci nəşrinin təsdiq edilməsi haqqında" əmri, Əlavə №8 " Tibbi tullantıların idarə olunması üzrə standart əməliyyat prosedurlarının toplusu" COVID-19 xəstələrinin bütün tullantılarını "B" sinfinə aid son dərəcə epidemioloji cəhətdən təhlükəli tullantılar kimi təsnif edir.

O, stasionar və səyyar qrupların təchiz edilməsi, habelə tibbi tullantıların ayrılması, identifikasiyası, qablaşdırılması, etiketlənməsi, toplanması və emalı (zərərsizləşdirilməsi) yerinə daşınması və utilizasiyası üçün tələbləri təsvir edir.

Qırğızıstanın da daxil olduğu inkişaf etməkdə olan ölkələrdə olduğu kimi tullantıların atıldığı yerlərdə zibilqarışdıran insanlar üçün də ciddi təhlükə yaranır. Bu insanlar iynə sancması və digər zəhərli və infeksiyalı maddələrlə təmas zamanı yaralanma riski altındadır.

Tibbi tullantıların təhlükəsiz idarə olunması sisteminin təkmilləşdirilməsi məqsədilə İssık-Kul vilayətlərinin Çuy və qərb hissələrində ilk tibbi yardımın 100 məntəqəsində "Tibbi tullantıların təhlükəsiz idarə olunması sistemi feldşer-mamalıq məntəqəsi səviyyəsində" silsilə təlimlər keçirilmişdir. Təlimlər BMT İnkişaf Proqramının Qlobal Ətraf mühit Fondunun (BMTİP) "Qırğızıstanda tibbi tullantıların düzgün idarə edilməməsi nəticəsində davamlı üzvi çirkləndiricilərin və civənin qəsdən buraxılmasından insan sağlamlığının və ətraf mühitin qorunması" layihəsinin dəstəyi ilə keçirilmişdir.

Tibbi tullantıların idarə edilməsi haqqında mövcud qanunvericilik 2018-ci ilin fevral ayında Hökumət tərəfindən "Qırğız Respublikasının ərazisində tibbi tullantılarının idarə edilməsinə dair təlimat" haqqında qərarla yenidən işlənmiş və təsdiq edilmişdir. Hökumətin "Qırğız Respublikası ərazisində tibbi tullantıların idarə edilməsi haqqında təlimatı" mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələrini əhatə edir və tullantıların təhlükələrinə ənənəvi yanaşmadan uzaqlaşmaq və səhiyyə tullantılarının institusional konsepsiyasının tətbiqini və qanunvericilik səviyyəsində toplanması, müvəqqəti saxlanması, daşınması və utilizasiyasına dair ciddi tələblərin tətbiqini asanlaşdırır.

Qırğızıstan 2005-ci ilin iyulunda Davamlı üzvi çirkləndiricilər (DÜÇ) üzrə Stokholm Konvensiyasını təsdiq etmiş və Qlobal Ətraf mühit Fondu və BMTİP-nın dəstəyi ilə DÜÇ-lərə dair Milli Fəaliyyət Planı daxil olmaqla, Milli İcra Planını hazırlamışdır. Səhiyyə Nazirliyi və İsveçrə Qızıl Xaç Cəmiyyəti arasında 2005-ci ildə həyata keçirilən birgə layihə xəstəxanalarda səhiyyə tullantılarının düzgün idarə edilməsinin xəstəxanadaxili infeksiyaları əhəmiyyətli dərəcədə azaltdığını nümayiş etdirdiyindən, Tibbi tullantıların idarə edilməsi Səhiyyə Nazirliyi üçün əsas prioritet məsələ olmuşdur.

2012-ci ildən etibarən Yaşıl Xaç “Ekois” qeyri-hökumət təşkilatı ilə birgə “Qırğızıstanda tibbi tullantıların idarə edilməsinin təkmilləşdirilməsi ilə sağlamlığa və təhlükəsizliyə mənfi təsirlərinin azaldılması” adlı layihə həyata keçirmişdir. Layihə Bişkekdəki ginekoloji xəstəxananı avtoklav və digər ləvazimatlar (iynə kəsicilər, yoluxucu tullantılar və s.) ilə təmin etmişdir. Xəstəxana kimyəvi dezinfeksiyadan avtoklavlamaya keçərək qənaət etmişdir. Eyni zamanda Səhiyyə Nazirliyi tərəfindən Qırğız Respublikasında tibbi tullantıların idarə edilməsi və xəstəxanadaxili infeksiyalara nəzarət üzrə proqram həyata keçirilmişdir.

Bu proqram çərçivəsində İsveçrə Qızıl Xaç Cəmiyyətinin dəstəyi ilə Narın rayonunda kənd yerlərində xəstəxanalar üçün nəzərdə tutulmuş avtoklav texnologiyalarının hazırlanması və sınaqdan keçirilməsi üçün pilot layihələr həyata keçirilmişdir. 2011-ci ildən "Narın modeli" Qırğızıstan-İsveçrə Tibbi tullantıların idarə edilməsi layihəsi çərçivəsində ölkənin digər yerlərində (kənd ərazilərində) təkrarlanmış və təqdim edilmişdir.

2019-cu ildə ölkə hökuməti “Qırğız Respublikasının səhiyyə təşkilatlarında tibbi tullantıların və civə tərkibli məhsulların idarə edilməsi haqqında” 719 saylı fərman verib. 2018-ci ildə Nazirlik tərəfindən “İnfeksiyaya nəzarət” praktiki təlimatı təsdiq edilib. “İnfeksiyaya nəzarət çərçivəsində Qırğız Respublikasının səhiyyə təşkilatlarında su təchizatı, kanalizasiya və gigiyena” təlimatı isə 2021-ci ilin iyun ayında işıq üzü görüb.

TÜRKİYƏ

Türkiyədə tibbi tullantıların təhlükəsiz idarə edilməsi ilə bağlı prinsiplər 25 yanvar 2017-ci il tarixli və 29959 nömrəli rəsmi qəzetdə dərc olunmaqla qüvvəyə minmiş “Tibbi tullantılara nəzarət qaydası” ilə müəyyən edilir. Əsasnamə səhiyyə müəssisələrinin fəaliyyəti nəticəsində yaranan tibbi tullantıların və bu tullantıların istehsal edildiyi yerlərdə ayrıca toplanması, səhiyyə müəssisəsi daxilində daşınması, müvəqqəti saxlanması, tibbi tullantıların emalı müəssisəsinə daşınması ilə bağlı prinsipləri və utilizasiyasını əhatə edir.

Əsasnamədə infeksiyaya səbəb olan tullantılar, patoloji tullantılar və kəsici, deşici tullantılar tibbi tullantılar kimi müəyyən edilir. Bundan əlavə, Əsasnamənin 1-ci Əlavəsində sadalanan fəaliyyətləri nəticəsində tibbi tullantılar yaradan bütün fiziki şəxslər, bütün qurumlar və təşkilatlar səhiyyə qurumları kimi müəyyən edilir.

Tibbi Tullantılara Nəzarət Qaydası ilə tibbi tullantıların idarə olunması ilə bağlı bələdiyyələrin vəzifələri texniki detallarla tənzimlənir. Əsasnaməyə əsasən,

tibb müəssisələri tibbi tullantıların mənbədə ayrıca toplanması, səhiyyə müəssisəsi daxilində daşınması və müvəqqəti saxlanmasına görə məsuliyyət daşıyır.

Tibbi tullantıların müvəqqəti anbarlarından/konteynerlərindən tullantıların emalı müəssisəsinə aparılması, sterilizasiya və/və ya zərərsizləşdirilməsinin təmin edilməsi/yaradılması, bu məqsədlə tibbi tullantıların emalı müəssisəsinin yaradılması və onun istismarı/istifadəsi böyük şəhərlərdə böyük şəhər bələdiyyələrinə, başqa yerlərdə bələdiyyələrə və ya səlahiyyətlərini həvalə etdikləri şəxs və təşkilatlara aiddir. Əsasnaməyə görə, tibbi tullantılar yandırılaraq utilizasiya edilə bilər. İstənilən kimyəvi maddələrlə işlənmiş patoloji tullantılar yandırma yolu ilə utilizasiya edilməlidir.

Bununla belə, heç bir kimyəvi maddə ilə işlənməmiş bədən hissələri və orqanları, o cümlədən qan torbaları və qan əvəzediciləri sterilizasiya müəssisəsində emal edilə bilər. Yalnız tanına bilən və yoluxma riski olmayan qollar, ayaqlar və döllər kimi patoloji tullantılar basdırıla bilər. Basdırılması tələb olunan patoloji tullantılar səhiyyə müəssisəsi tərəfindən verilən sənədlə müraciət edən xəstəyə və ya xəstənin yaxınına təhvil verilir. Dəfn prosesinin həyata keçirilməsində 19/1/2010-cu il tarixli və 27467 nömrəli Rəsmi Qəzetdə dərc edilmiş Qəbiristanlıq yerlərinin inşası, Cənazənin daşınması və Dəfn prosedurları haqqında Əsasnamənin müddəaları tətbiq edilir. Tibbi tullantıların yandırılaraq məhv edilməsində 6/10/2010-cu il tarixli və 27721 saylı Rəsmi Qəzetdə dərc edilmiş Tullantıların yandırılması haqqında Əsasnamənin müddəalarına əməl edilir.

Digər tərəfdən, infeksiya mənbəyi olan və kəsici-deşici tullantılar sterilizasiya ilə zərərsizləşdirilə bilər.Zərərsiz hala gətirilmiş və tibbi tullantı xarakterini itirmiş tullantılar 26/3/2010-cu il tarixli və 27533 nömrəli Rəsmi Qəzetdə dərc edilmiş Tullantıların müntəzəm saxlanması haqqında Əsasnamə ilə müəyyən edilmiş 2-ci sinif poliqonlarda utilizasiya edilə bilər.

Səhiyyə müəssisələri istehsal etdikləri tullantıların toplanması, daşınması, sterilizasiyası və utilizasiyası üçün tələb olunan xərcləri utilizasiyanı həyata keçirən bələdiyyə və ya səlahiyyətlərini təhvil verdiyi quruma ödəməlidirlər.

Qərarın müddəalarına görə Tibbi tullantıların toplanması, daşınması, sterilizasiyası və atılması xərclərinə əsaslanacaq, hər il Tibbi tullantıların əmələ gəldiyi vilayətin Yerli Ekoloji Şura tərəfindən müəyyən edilərək elan edilir və Nazirliyə bildirilir.

Türkiyədə ilk sterilizasiya mərkəzləri 2008-ci ildə açılıb. 2023-cü ilin sentyabr ayından etibarən ümumilikdə 68 sterilizasiya mərkəzi və 3 yandırma zavodu 81 əyalətdə Tibbi tullantıların atılmasını təmin edir.

Tibb müəssisələri istehsal etdikləri tullantıların toplanması, daşınması, sterilizasiyası və atılması üçün lazım olan xərcləri təkrar emal edən şəxsə ödəməlidirlər.

Qaydaların müddəalarına uyğun olaraq, toplanması, daşınması, sterilizasiyası və atılması xərclərini ödəmək üçün istifadə ediləcək Tibbi tullantıların ödənişi Tibbi tullantıların əmələ gəldiyi vilayətin yerli ətraf mühit Şurası tərəfindən müəyyən edilir və elan edilir və hər il nazirliyin diqqətinə çatdırılır. Tibbi tullantıların atılması üçün ödəniş müəyyən edilərkən, yaranan tullantıların yönəldiləcəyi sterilizasiya və/və ya atılma sahəsinə Nəqliyyat məsafəsi, həmçinin sterilizasiya və/və ya atılma xərcləri nəzərə alınır.

Davamlı Üzvi Çirkləndiricilərə dair Stokholm Konvensiyası Türkiyə tərəfindən 23 may 2001-ci ildə imzalanmışdır. Müqavilənin təsdiqi 02.04.2009-cu il tarixli 5871 nömrəli Qanunla (14 aprel 2009-cu il tarixli, 27200 nömrəli Rəsmi Qəzet) məqsədəuyğun hesab edilmiş və Nazirlər Şurasının 2009/15272 saylı Qərarı ilə təsdiq edilmişdir. 30 iyul 2009-cu il tarixli, 27304 nömrəli rəsmi qəzet). Türkiyə 12 yanvar 2010-cu il tarixindən etibarən müqaviləyə tərəfdir.Türkiyə bununla bağlı Davamlı üzvi çirkləndiricilər üzrə Milli Fəaliyyət Planı hazırlamışdır.

Bəzi təhlükəli kimyəvi maddələrin və pestisidlərin beynəlxalq ticarəti üçün əvvəlcədən məlumatlandırılmış qəbul proseduru haqqında Rotterdam Konvensiyası Türkiyə tərəfindən 10 sentyabr 1998-ci ildə imzalanmışdır.

Müqavilənin təsdiqi 09.03.2017-ci il tarixli 6988 nömrəli Qanunla (3 aprel 2017-ci il tarixli, 30027 nömrəli Rəsmi Qəzet) məqsədəuyğun hesab edilmiş və Nazirlər Şurasının 2017/10427 nömrəli Qərarı ilə təsdiq edilmişdir (1 avqust 2017-ci il tarixli, 30141 nömrəli Rəsmi Qəzet). Türkiyə 20 dekabr 2017-ci il tarixindən etibarən müqaviləyə tərəfdir.

Ozon qatını məhv edən maddələrlə bağlı Monreal Protokolunda iştirak 06.06.1990-cı il tarixli 3655 nömrəli Qanunla məqsədəuyğun hesab edilmiş (20 iyun 1990-cı il tarixli, 20554 nömrəli Rəsmi Qəzet), iştirak Nazirlər Şurasının 90/733 nömrəli qərarı (8 sentyabr 1990-cı il tarixli, 20629 saylı Rəsmi Qəzet) ilə təsdiq edilmişdir. ilə qərara alınmışdır. Türkiyə 19 dekabr 1991-ci ildə Ozon qatını məhv edən maddələrlə bağlı Monreal Protokolunun iştirakçısı olmuşdur.

Türkiyə həmçinin Rotterdam Konvensiyasını, Minamata Konvensiyasını və Monreal Protokolunu ratifikasiya edib.

NƏTİCƏ

Təhlükəli tibbi tullantılarla bağlı risklər tibbi tullantıların idarə olunması sisteminin bütün mərhələlərində mövcuddur. Bu tip tullantılarla işləyən tibb işçiləri və köməkçi heyət daşınma zamanı yoluxma riski altındadır.

Tibbi tullantılarla işləyərkən aşağıdakı əsas risklər müəyyən edilir: yoluxucu təhlükə, kəskin əşyalar/kəsici tullantılarla əlaqəli xəsarətlər, zəhərli və kanserogen təsirlər, ətraf mühitin çirklənməsi, inyeksiya yerindən nüfuz etmə, dəri yaraları (inyeksiya, əməliyyatlar və s.), selikli qişalar vasitəsilə sorulma, nadir hallarda tənəffüs və həzm sistemi vasitəsilə nüfuz etmə.

TÜRKPA üzv ölkələrinin hər birinin tibbi tullantıların idarə olunması siyasəti sahəsində öz təcrübəsi və xüsusiyyətləri var. Bununla belə, onların səhiyyə sektorunda təhlükəsiz və ekoloji cəhətdən sağlam təcrübələrin tətbiqi ilə bağlı ümumi hədəfləri olmalıdır. Əsas məqsəd riskləri daha da minimuma endirmək üçün insan sağlamlığının və ətraf mühitin tibbi tullantıların təhlükəli təsirlərindən qorunması olmalıdır. Türk dövlətlərində tibbi tullantıların dayanıqlı idarə olunmasında əsas prinsiplərin işlənib hazırlanması vacibdir. Tibb müəssisələri ətraf mühitin çirklənməsini azaltmaq üçün tullantıların utilizasiyasında yeni texnologiyalardan istifadə etməlidir. TÜRKPA üzv dövlətləri üzv olduqları beynəlxalq təşkilatlar və tərəfdaş olduqları beynəlxalq müqavilələr çərçivəsində müvafiq sahələrdə əməkdaşlıq edə bilərlər.

Eyni zamanda, biotibbi tullantıların utilizasiyası ilə məşğul olan şirkətlər də səhiyyədə həlledici rol oynayır. Onlar biotibbi tullantıların təhlükəsiz və səmərəli idarə olunmasını təmin edirlər. Belə şirkətlərin köməyi ilə tullantılar toplanır və daşınır, effektiv müalicə və dezinfeksiya proseslərindən istifadə edir və normativ standartlara əməl edirlər. Onlar həmçinin səhiyyə müəssisələri üçün təlim və təhsil xidmətləri həyata keçirirlər. Bu şirkətlər ətraf mühitin dayanıqlılığına sadiqdir. Onlar ətraf mühitə təsirini minimuma endirmək üçün tullantıların azaldılması tədbirlərini də həyata keçirir. Biotibbi tullantıların utilizasiyası şirkətləri ilə əməkdaşlıq edərək, səhiyyə müəssisələri diqqətini keyfiyyətli xidmət göstərməyə yönəldə və tullantıların təhlükəsiz və səmərəli idarə olunduğunu bilərək, bu məsuliyyəti mütəxəssislərə həvalə edə bilərlər.

TÜRKPA üzv dövlətləri arasında tibbi tullantıların idarə olunması ilə bağlı məlumat və ən yaxşı təcrübələrin mübadiləsi tibbi tullantıların idarə edilməsi üçün uğurlu siyasətlərin, qaydaların və texnologiyaların paylaşılmasını əhatə edə bilər. Burada eyni zamanda standartlaşdırma və qaydalar da önəmlidir. Belə ki, tibbi tullantıların utilizasiyası, zərərsizləşdirilməsi və emalı ilə bağlı standartların və qaydaların hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Potensialın gücləndirilməsi və təlimlər üzv dövlətlərin səhiyyə işçiləri və tullantıların idarə edilməsi üzrə məsul işçiləri üçün təlim və bacarıqların artırılması proqramlarının təşkil edilməsi cəhətdən vacibdir. Bununla belə, Türkiyədə qüvvədə olan Tibbi Tullantılara Nəzarət Qaydasına uyğun olaraq, bələdiyyələr səhiyyə müəssisələrindən tibbi tullantıların toplanması, daşınması, emalı və utilizasiyasına cavabdehdirlər. Bələdiyyələr tibbi tullantıların emalı ilə məşğul olan şirkətlə protokol tərtib edərək bu məsuliyyətləri ötürə bilərlər.

Üzv dövlətlər arasında tibbi tullantıların idarə edilməsi üçün ekoloji cəhətdən təmiz və sərfəli texnologiyaların ötürülməsinin asanlaşdırılması önəmlidir. Tibbi tullantıların utilizasiyası, zərərsizləşdirilməsi və emalı üçün standartların və qaydaların işlənib hazırlanması, üzv dövlətlərin səhiyyə işçiləri və tullantıların idarə edilməsi orqanları üçün təlim və bacarıqların artırılması proqramlarının təşkili və üzv dövlətlər arasında tibbi tullantıların idarə edilməsi üçün ekoloji cəhətdən təmiz və sərfəli texnologiyaların ötürülməsinə yardım etmək dövlətlər mühüm məsələlərdir. Bunlara tullantıdan enerjiyə texnologiyaları və qabaqcıl sterilizasiya üsulları daxil ola bilər. Birgə maarifləndirmə kampaniyaları və təhsil proqramları tibbi tullantıların düzgün idarə olunmasının vacibliyi barədə ictimaiyyəti, səhiyyə mütəxəssislərini və tullantıların idarə edilməsi üzrə məsul şəxsləri məlumatlandıra bilər.

Tibbi tullantıların idarə olunması üzrə TÜRKPA çərçivəsində əməkdaşlıq qlobal dayanıqlılıq məqsədlərinə töhfə verməklə daha səmərəli, qənaətcil və ekoloji cəhətdən təmiz təcrübələrə gətirib çıxara bilər.